# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №11 (81) • 26.03.2012

AzadliqRadiosu.az®

**Mehriban Əliyeva «Eurovision 2012»nin təşkili və evlərin niyə sökülməsindən danışıb** səh.5

**Праздник без народа** səh.7

**Rəsul Quliyev debata çağırır** səh.8

**Sovet dövründən qalmış əmanətlərin qaytarılması qaydaları** səh.9

**Azərbaycanda 5 kişidən 1-i siqaretdən ölür** səh.10

Yuri Şevçuk: **"Musiqiçilərdən əlinizi çəkin!"** səh.13

## Maraqlı videolar

- Milli geyimli tələbələr
- Fransada qətllərdə ittiham olunan gəncin videosu
- "Son 7 ildə belə bir şey olmamışdı..."

**www.AzadliqRadiosu.az**

# Qubada yeni həbslər



Martın 13-də «Xəyal» televiziyasının 3 əməkdaşı saxlanılıb. Onlardan biri martın 23-də sərbəst buraxılıb. Martın 17-də isə eyni hadisələrlə bağlı şəhər bələdiyyəsinin sədri Elxan Əliyev və bələdiyyə üzvü Dəstəbəy Tərlanov saxlanılıb. Martın 23-də isə daha 8 nəfər Xanəgah kənd sakini polisə aparılıb.

səh.2

# Üç min 630 manata xaricdən 1 inək alan dövlət təşkilatı



*«Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti 2004-cü ildə yaradılıb. Bu qurum hökumətin kənd təsərrüfatının inkişafına yardım layihələrini icra edir, fermerlərə güzəştli şərtlərlə texnika, cins mal-qara verir. "Aqrolizinq" ASC 2011-ci ildə 52 milyon 640 min manatlıq tender keçirib.*

səh.6

# Rokçu Camal Əli: "Dabanıma dubinka ilə 2 saat vurublar"



"Keçən dəfə məhkəmədə dedim ki, döyüblər, gətirib bir də döydülər. İndi deyəcəm döyüblər, aparıb yenə döyəcəklər". Bunu gənclərin 17 mart mitinqində həbs olunan "Bulistan" qrupunun üzvü, rok musiqi ifaçısı Camal Əli Apelyasiya Məhkəməsində dedi.

səh.4

## Qarət



# Qubada yeni həbslərə başladılar

## Baş redaktor icra başçısının çıxışını montaj etməkdə günahlandırılır



Quba - 1 mart 2012

«Qubanın sabiq icra başçısı Rauf Həbibovun çıxışı montaj olunmayıb». Bu fikirlər icra başçısının keçirdiyi iclasda iştirak edən, amma adının çəkilməsini istəməyən Quba sakininə məxsusdur. Vəkil Səfər Hüseynov isə deyir ki, «Xəyal» televiziyasının həbs edilən baş redaktoru Zaur Quliyev icra başçısının çıxışını montaj etməkdə ittiham olunur: «Guya o, icra başçısının nitqini montaj edib, söyüşlər ardıcıl qabardılıb. İttiham bu cürdür. Mən bilmirəm elə olub, ya olmayıb. Amma Zaur Quliyev mənə deyib ki, o, həmin iclasa operator göndərib, amma qalan məsələləri o bilmir. Deyir, montaj olubsa da və onu kimsə eləyibsə də, ondan xəbərim yoxdur».

Martın 13-də «Xəyal» televiziyasının 3 əməkdaşı saxlanılıb. Onlardan biri, televiziyanın reklam meneceri Zaur Mustafayev martın 23-də sərbəst buraxılıb. Televiziyanın icraçı direktoru Vüqar Qonaqov və baş redaktor Zaur Quliyev isə hələ həbsdədir. İndiyədək Quba hadisələri ilə əlaqədar saxlananlardan 10 nəfərin adı məlumdur.

### «XƏYAL» TV-NİN ƏMƏKDAŞI AZAD OLUNDU

«Xəyal» televiziyasının reklam meneceri Zaur Mustafayev martın 23-də azadlığa buraxılıb. Bu haqda AzadlıqRadiosuna o özü deyib. Amma Zaur Mustafayev niyə saxlanması haqda sualı cavabsız buraxıb: «Mən heç nə deyə bilmərəm. Mənə zəng etməyin».

«Xəyal» televiziyasının martın 13-də saxlanılan digər iki əməkdaşı isə hələ də həbsdədir. Onlardan biri televiziyanın icraçı direktoru Vüqar Qonaqov, digəri isə baş redaktor Zaur Quliyevdir. Zaur Quliyev haqqında Cinayət Məcəlləsinin 233 (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) və 309.2 (vəzifə səlahiyyətlərini aşmaq) maddələri ilə cinayət işi açılıb. Bunu AzadlıqRadiosuna baş redaktorun vəkili Səfər Hüseynov deyib: «Zaur iğtişaşlarda iştirak etmədiyini deyir. Amma bildirir ki, icra hakimiyyətinin iclasına reportyor göndəriblər, o da icra başçısının çıxışını çəkib gətirib (2011-ci il noyabrın 22-də Quba Rayon İcra Hakimiyyətində ilin yekunlarına dair müşavirədə etdiyi həmin çıxış martın 1-də rayonda etiraz aksiyasına səbəb olub - M.Ç.). Onu da deyir ki, direktor nə deyib onu etmişik».



Arxiv foto

Vəkil «Xəyal» televiziyasının əməkdaşının Qubadan Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparıldığını, daha sonra barəsində 2 aylıq həbs-qətimkan tədbiri seçildiyini deyir. Televiziya əməkdaşına qarşı irəli sürülən ittihamlar təsdiqlənsə, ona 3 ildən 7 ilə qədər həbs cəzası verilə bilər.

### «XƏYAL» TELEVİZİYASININ İCRAÇI DİREKTORU HARADADIR?

Televiziyanın icraçı direktoru Vüqar Qonaqov barəsində də ətraflı məlumat öyrənə bilmədik. Yaxınları onun saxlandığını təsdiqləsələr də, harada olmasından xəbərsiz olduqlarını deyirlər.

### QUBADAKI SONUNCU HƏBSLƏR

Quba hadisələri ilə əlaqədar sonuncu həbs edilənlər şəhər bələdiyyəsinin sədri Elxan Əliyev və bələdiyyə üzvü Dəstəbəy Tərlanovdur. Dəstəbəy Tərlanovun oğlu Zaur Tərlanov AzadlıqRadiosuna atasının martın 17-də həbs edildiyini təsdiqləyib. Amma deyir indiyə qədər onun harada saxlanmasından xəbərsizdirlər: «Martın 17-də atamın mobil telefonuna zəng vurdum, zəng çatmadı. Elə o gündən də atamdan xəbərsizik. Daxili İşlər Nazirliyinin «102» qaynar xətt sorğu xidmətinə zəng elədim. Quba polisinə zəng etdim, dedilər 1 mart hadisələri ilə bağlıdır, başqa heç bir məlumatımız yoxdur».

### QUBADA DAHA 8 NƏFƏR POLİSƏ APARILIB

Qubada həbslər dayanmaq bilmir. Martın 23-də rayonun Xanəgah kəndindən 8 nəfər polisə aparılıb. Bu barədə AzadlıqRadiosuna Helsinki Vətəndaş Assambleyasının Azərbaycan nümayəndəliyi məlumat verib. Təşkilat saxlanılanlar və onlardan kimlərinsə sonradan azad edilməsi barədə əlavə məlumat ala bilmədiyini deyir. Quba Rayon Polis Şöbəsindən isə AzadlıqRadiosuna deyiblər ki, Xanəgah kənd sakinlərinin saxlanılmasından xəbərsizdilər.

***Maarif Çingizoğlu***




Qarşılaşdığın problemlər, qanunsuz davranışla bağlı **"Qaynar Xətt"**ə yaz, hüquqşünaslardan məsləhət al. Suallara hər həftənin şənbə günü **saat 18:05-dən 19-00-a** qədər hüquqşünaslar canlı efirdə **"Qaynar Xətt"** verilişində cavab verəcəklər.

**"Qaynar Xətt"lə əlaqə vasitələri:**

İstənilən vaxtda qaynar xəttimizə - **(012) 436 77 41** nömrəli telefona zəng edib sual və şikayətinizi səsləndirə bilərsiniz. Zənglər avtomat tərəfindən qəbul olunduğundan, rica edirik şikayətinizi bildirəndən sonra əlaqə nömrənizi də deyəsiniz ki, sizinlə əlaqə saxlaya bilək.

Yalnız canlı efir zamanı hər həftənin şənbə günü **saat 18:05-dən 19:00-a** qədər **efir@azadliqradiosu.az** elektron ünvanımıza e-mail şəklində, **(+99450) 7441017** nömrəsinə SMS şəklində şikayətlərinizi yaza bilərsiniz ki, suallarınız canlı efirdə cavablandırılsın.

# Gənclərin rəngarəng mitinqi

## Mitinqdə 3 nəfər həbs edilib



**Martın 17-də Bakıda müxalif və müstəqil gənclərin mitinqi keçirilib. Səbayel rayonu, 20-ci yaşayış sahəsindəki sürücülük məktəbinin stadionunda baş tutan mitinq «Qarabağ!», «Siyasi məhbuslara azadlıq!», «Təhsildə rüşvətə yox deyirik!» şüarları ilə başlayıb. Gənclər «İstefa!» şüarları da səsləndiriblər. Aksiyada çıxış edənlər bildiriblər ki, insanların mülkiyyət hüququnu pozan, 18 ildə Qarabağ problemini həll edə bilməyən hakimiyyət istefaya getməlidir. Mitinq Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılıb.**

**KİM NƏDƏN DANIŞDI**

Müsavat Gənclər Təşkilatının sədr müavini Səxavət Soltanlı çıxışında deyib ki, İlham Əliyev hakimiyyətinin siyasi məhbusları azad etməməsi başadüşülən deyil. O, çıxışında hakimiyyəti bütün «vicdan məhbusları»nı azad etməyə çağırıb. Deyib ki, 18 il ərzində torpaqları işğaldan azad edə bilməyən hakimiyyət istefa verməlidir.



Daha sonra «Dalğa» Gənclər Təşkilatının sədri Xanım Yadigarlı çıxış edib. O, mitinqdə heç bir siyasi partiyanı dəstəkləmədiklərini bildirib. Deyib ki, onlar rüşvətsiz təhsil istəyirlər. O, çıxışını «Təhsildə rüşvətə yox!» şüarı ilə bitirib.

AXCP Gənclər Komitəsinin sədri Əbülfəz Qurbanlı isə deyib ki, Azərbaycan hakimiyyəti gəncləri aldadır. O, onlarla gəncin «siyasi məhbus» kimi həbsxanalarda, «qul bazarı»nda olduğunu deyib. Bildirib ki, 17 mart gənclərin ilk addımıdır: «Bu ölkədə qorxmayan gənclik var».

Onun çıxışından sonra aksiya iştirakçıları «Azərbaycan!» şüarları səsləndiriblər.

"NİDA" Gənclər Hərəkatının nümayəndəsi isə çıxışında daha çox Azərbaycan ordusundakı vəziyyətə toxunub. Deyib ki, Azərbaycan iqtidarı Qarabağ faktından hakimiyyətdə qalmaq üçün istifadə edir.

**İŞIQLAR KƏSİLİB**

Aksiyada polislərdən xahiş olunub ki, onlar mitinqin tribunasından uzaqlaşsınlar. AXCP Gənclər Komitəsinin sədri Əbülfəz Qurbanlı deyib ki, onlar aksiya başlamazdan əvvəl rayonun polis rəisi ilə danışıb polisin aksiyaya müdaxilə etməməsini istəyiblər. Mitinq keçirilən əraziyə verilən elektrik enerjisi kəsilib. Bu, aksiyaçıların etirazına səbəb olub. Onlar hakimiyyət əleyhinə şüarlar səsləndiriblər.

İqtisadçı Natiq Cəfərli də mitinqdə çıxış edib. O deyib ki, Azərbaycan hakimiyyəti öz ailəsinin və yaxınlarının mənafeyinə yox, bütün millətə xidmət etməlidir. O, çıxışında prezident ailəsinin Dubay mülklərinə də toxunub.

**DAVA DÜŞDÜ**

Mitinqin çıxışlar hissəsi bitdi. Qətnamə oxundu. Mitinq konsert proqramı ilə davam edib. Bu zaman dava düşüb. Dava «Bulistan» qrupu mahnı ifa etdiyi zaman baş verib. Davaya səbəb 1 nəfərin mahnının sözlərinə etiraz etməsi olub. Polis 3 nəfəri saxlayıb - «Bulistan» qrupunun üzvü, mahnı ifa edən Camal Əli, gitaraçı Natiq Kamilov və «NİDA» Vətəndaş Cəmiyyətinin üzvü, blogger Etibar Salmanlı.

Saxlananlar Səbayel Rayon Polis İdarəsinin 8-ci bölməsinə aparılıb. 8-ci polis bölməsindən isə AzadlıqRadiosuna bölməyə 4 nəfərin gətirildiyini deyiblər. Amma onların adları açıqlanmır.

## AzadliqRadiosu.az saytında maraqlı videolar

- **Milli geyimli tələbələr**
- **Etibar Salmanlı azadlığa çıxıb**
- **Fransada qətllərdə ittiham olunan gəncin videosu**
- **Azərbaycanın 6 bölgəsinin milli geyimləri təqdim edildi**
- **Müxtəlif ölkələrdə Novruz şənliklərindən görüntülər**
- **90 yaşlı "Cahandar ağa" ilə söhbət...**
- **"Son 7 ildə belə bir şey olmamışdı..."**
- **Novruz bayramı Kabildə belə qeyd olunur**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**İctimai Palata yeni mitinq üçün yer seçir**



**«Freedom House» ziyalılara təzyiqləri pisləyir**



**Hugo Chavez müalicə üçün yenidən Kubaya gedir**

# Rokçu Camal Əli: "Dabanıma dubinka ilə 2 saat vurublar"

**"Keçən dəfə məhkəmədə dedim ki, döyüblər, gətirib bir də döydülər. İndi deyəcəm döyüblər, aparıb yenə döyəcəklər". Bunu gənclərin 17 mart mitinqində həbs olunan "Bulistan" qrupunun üzvü, rok musiqi ifaçısı Camal Əli Apelyasiya Məhkəməsində dedi.**

Martın 21-də Apelyasiya Məhkəməsində mitinqdə saxlanılan 3 nəfərin – Etibar Salmanlı, Camal Əli və Natiq Kamilovun şikayətlərinə baxıldı. Məhkəmə açıq keçirildi, prosesə ailə üzvləri, ictimai fəallar və ABŞ-ın Azərbaycandakı səfirliyinin əməkdaşı da qatılmışdı. Camal Əlinin işi üzrə məhkəməyə hakim Əflatun Qasımov sədrlik edirdi. Proses vəkil Anar Qasımlının vəsatəti ilə başlandı. Vəkil dedi ki, 4 gündür ona müdafiə etdiyi şəxslərlə görüşmək imkanı verilmir və gənclərə hüquqi xidmət göstərə bilmir:



Vəkil Anar Qasımlı

### "CAMAL ƏLİ İLƏ 10 DƏQİQƏLİK TƏKBƏTƏK GÖRÜŞ VERİLSİN"

"Səbayel rayon 8-ci polis bölməsində mənə müdafiə etdiyim şəxslərlə görüşməyə imkan verməyiblər. Mən vəsatət vermək istəyirəm ki, Camal Əli ilə 10 dəqiqəlik təkbətək görüş verilsin".

Hakim vəsatəti təmin etsə də, 8-ci polis bölməsinin əməkdaşı vəkilə bildirdi ki, ancaq telefonunu təhvil verdikdən sonra bu görüş baş tuta bilər. Vəkil bu tələbin qanunsuz olduğunu dedi və bu şərtlər altında görüşdən imtina etdi. Bundan sonra Anar Qasımlı işin halları barədə danışdı: "Mahnıdakı qeyri-etik ifadədən sonra mitinq iştirakçıları arasında mübahisə yaranıb. Camal Əlinin mikrofonu açıq olduğu üçün onun söyüşü ətrafa yayılıb. Mikrofon açıq olmasaydı, söyüş eşidilməzdi. İkinci məsələ Camal Əlinin şəxsiyyəti ilə bağlıdır. O, kriminal şəxs deyil, ali təhsillidir, Türkiyədə təhsil alır, əvvəllər həbs olunmayıb, gəncdir, musiqiçidir. Ona görə də onun barəsində seçilmiş inzibati qaydada həbs qərarının dəyişdirilməsini, ya cərimə tətbiq etmənizi, ya da 4 günlük həbslə kifayətlənmənizi xahiş edirəm".

Vəkil martın 17-də polis bölməsində Camal Əlinin döyülməsi ilə əlaqədar hakimdən prokurorluğa müraciət göndərməsini də xahiş etdi.

Döyülmə faktı ilə əlaqədar fasilədə Camal Əli AzadlıqRadiosunun sualına cavab verdi. Onun polis bölməsində döyüldüyünü təsdiqləməsi polis əməkdaşlarının narazılığına səbəb olub. O, məhkəmə çıxışı zamanı da ona işgəncə verilməsindən danışıb:

### "BURDAN AZADLIĞA BURAXILMAĞIMI İSTƏYİRƏM"

"Keçən dəfə dedim ki, döyüblər, gətirib bir də döydülər. İndi deyəcəm döyüblər, aparıb yenə döyəcəklər. Dabanıma "dubinka" ilə vururdular. Martın 19-da saat 3-5 arası 2 saat döyüblər. Mən cinayətkar deyiləm, psix deyiləm, 4 gündür cəzamı çəkdim, cəza qanun çərçivəsindən kənara da çıxdı. Burdan azadlığa buraxılmağımı istəyirəm".

Camal Əli onunla birlikdə həbs olunan Etibar Salmanlı və Natiq Kamilovun həbsini ədalətsiz hesab etdiyini dedi: "Məni söyüş söydüyümə görə tutublar. Bəs onları niyə? Onlar söyüş söyməyiblər axı".

Müşavirədən sonra hakim Səbayel Rayon Məhkəməsinin qərarını dəyişdirmədən saxladığını, şikayəti təmin etmədiyini açıqladı. Bunun ardınca hakim Əmir Bayramovun sədrliyi ilə Etibar Salmanlı və Natiq Kamilovun şikayətinə baxıldı. Vəkil Anar Qasımlı Etibar Salmanlının və Natiq Kamilovun situasiyasının fərqli olduğunu, söyüş söymədiklərini bildirdi: "Polis onları, sadəcə, yaxınlıqda görüb tutub aparıb".

Vəkil deyib ki, hadisə yerində olanlardan yalnız polisin ifadəsinə əsasən yazılmış raportu dəlil hesab etmək olmaz. Hakim izahatda həm Salmanlının, həm də Kamilovun söyüş söyməsini təsdiq etdiyini bildirib. Etibar Salmanlı isə hakimə belə cavab verib:

### "ORDA DEDİLƏR Kİ, İMZA AT, BU BİR KAĞIZDIR, İNDİ BURAXACAQLAR SƏNİ"

Natiq Kamilov isə döyüldüyünü və imza atarkən pis vəziyyətdə olduğunu açıqlayıb: "Nə diktə edirdilər, onu yazırdım. Mən orda elə vəziyyətdəydim ki... Mənə yazdırdılar ki, söyüş söymüşəm. Arada fasilə oldu, fürsət düşdü, bunun ardınca tez yazdım ki, xeyr, söyməmişəm".

### GÜNDƏ 1 DƏFƏ YEMƏK...

Fasilədə AzadlıqRadiosunun suallarına cavab verən Kamilov polis idarəsində onlara gündə 1 dəfə, bəzən iki dəfə yemək verildiyini dedi. Məhkəmə Etibar Salmanlı və Natiq Kamilov barəsində də əvvəlki hökmü qüvvədə saxlayaraq şikayəti təmin etmədi.

***Durna Səfərli***

# Gitaraçı Natiq: «İlk yumruğu mülkigeyimlidən yedim»

**"Nida" təşkilatının üzvü Etibar Salmanlının azadlığa çıxmasından sonra «Bulistan» qrupunun üzvü, 17 mart mitinqində 6 sutka həbs cəzası alan Natiq Kamilov da azadlıqdadır. Həbsdən bir neçə saat əvvəl buraxılan, kameralardan qaçan və çəkilişə israrla «yox» deyən gənclə telefon söhbətini diqqətinizə çatdırırıq.**

*- Həbsdə olduğunuz müddətdə döydülərmi sizi?*

- Polis İdarəsində, yəni qaldığım yerdə işgəncə verməyiblər. Amma birinci aparıldığım polis bölməsində huşum özümdə deyildi. Xəbərim yox idi. Yəqin huşu özündə olmayanı da döyməzlər.

*- Yəni bölməyə aparılana kimi sizi döymüşdülər?*

- Hə, ona kimi babat döyülmüşdüm.

*- Bədəninizdə iz qalıbmı?*

- Gözümün altında qızartı var. Bir də sol çiynimdə göyərti. Başqa heç nə. Polis İdarəsində işgəncə verilməyib mənə. Ən azından mənə qarşı olmayıb. Nə olubsa, bölməyə gələnə kimi olub. Yalandan nə şər atım axı?...



Natiq Kamilov

***Şahnaz Bəylərqızı***

# Mehriban Əliyeva «Eurovision 2012»nin təşkili və evlərin niyə sökülməsindən danışır



Mehriban Əliyeva

**Bakıda keçiriləcək "Eurovision 2012" müsabiqəsinin Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva yerli mediaya nadir müsahibələrindən birini verib. Onun "Trend" informasiya agentliyində yayılan müsahibəsini qısa ixtisarla təqdim edirik.**

*- Mehriban xanım, ölkəmiz müsabiqənin qonaqlarını və iştirakçılarını necə və nə ilə qarşılayacaq?*

- Müsabiqənin keçiriləcəyi yer haqqında daha ətraflı danışmaq istərdim. Bildiyiniz kimi, Bakı şounun keçirilməsi üçün üç yer təqdim etmişdi. Onlardan biri "Bakı Kristal Zalı" idi. Habelə qeyd etməyə dəyər ki, "Bakı Kristal Zalı" 2020-ci il Olimpiya Oyunlarının keçirilməsi üzrə ölkəmizin verdiyi ərizə çərçivəsində idman arenalarının siyahısına daxil edilib. "Bakı Kristal Zalı" Dövlət Bayrağı Meydanının lap yaxınlığında yerləşir və oradan şəhərin möhtəşəm mənzərəsi açılır. Bu kompleks Cənubi Qafqazda ən böyük idman-konsert arenası olacaq. Onun arxitekturası Şərqlə Qərb arasında körpüdür. Bu binanın divarlarına çoxsaylı kristallar bərkidiləcək və onlarda işığın rəqsi tamamilə təəccüblü vizual effektlər yaradacaq.

"Eurovision" ilə eyni vaxtda digər mədəni tədbirlər də keçiriləcək. Bu gün həmin tədbirlərin siyahısı dəqiqləşdirilir. Müsabiqə başlayanadək Dövlət Bayrağı Meydanına qədər uzanacaq "Yeni bulvar"ın tikintisi başa çatdırılacaq.

*- Mehriban xanım, söhbət "Yeni bulvar"ın tikintisindən düşmüşkən, son həftələr KİV-də, o cümlədən Avropa ölkələrində iddia edildiyinə görə "Eurovision"a hazırlıqla bağlı evlərin sökülməsi nəticəsində yaranan problemə, yəni bu evlərin sakinlərinin narazılığına böyük diqqət ayrılması barədə soruşmaya bilmərəm...*

- Bəli, mən KİV-in bu materialları ilə tanışam. Çox təəssüf ki, qarşıdakı müsabiqəyə həsr edilmiş məqalələrin müəlliflərinin heç də hamısı, ümumiyyətlə, yazmağa başladıqları məsələ haqqında kifayət qədər səriştəli deyil. Hər şeydən əvvəl bir daha qeyd etmək istəyirəm: evlərin sökülməsinin "Eurovision"a hazırlıqla heç bir əlaqəsi yoxdur. Bu gün doğma Bakımızın mənzərəsi dəyişir, paytaxtda yeni parklar salınır, yollar çəkilir, yaşayış və ofis kompleksləri ucaldılır. Bu yenidənqurma işləri duetimiz "Eurovision"da qələbə qazanmazdan əvvəl başlayıb və müsabiqə başa çatdıqdan sonra da davam edəcək. Buna görə də bu məsələnin "Eurovision" ilə heç bir əlaqəsi yoxdur.

Lakin belə miqyaslı işlərin həyata keçirilməsi zamanı, mütəxəssislərin dediyi kimi, çox vaxt torpaqların özgəninkiləşdirilməsi və mənzillərin, xüsusilə çox köhnə, komfortsuz, azmərtəbəli, müasir tələblərə cavab verməyən mənzillərin sökülməsinə zərurət yaranır. Belə hallar baş verib, baş verir və sizi inandırım ki, praktiki olaraq yeni yolların çəkildiyi, evlərin tikildiyi və ya yeni metro xətlərinin çəkildiyi hər yerdə baş verəcək. Əmin edirəm ki, Azərbaycanda hər şey qanuna uyğun edilir. Evləri sökülən sakinlərə kompensasiya ödənilir, onlara yeni mənzillər təklif edilir. Çoxlu sayda ailələrin köçürülməsi zamanı narazı qalanlar da mütləq olacaq.

Bu, həm obyektiv, həm də subyektiv amillərlə bağlıdır. Harada isə onlarla şəxsdən bazarla müəyyən edilmiş kompensasiyanın həcmindən razı qalmayan bir nəfər olacaq, halbuki kompensasiya onlara bərabər həcmdə ödənilir. Köçürülmə zamanı kömək göstərilməsində və ya müvafiq şəraitin yaradılmasında kifayət qədər nəzakətli olmayan aşağı rütbəli məmurların lüzumsuz hərəkətlərə cəhdi ola bilər. Belə hallar, təbii ki, tutduğu vəzifədən asılı olmayaraq, qarşısında hamının eyni olduğu qanuna uyğun nəzərdən keçirilməlidir.

Fikrimcə, burada "orta yanaşma" qəbuledilməzdir. Üstəlik, böyük səs-küy xətrinə bu problemi evlərin sökülməsi ilə əlaqəsi olmayan "Eurovision"la bağlamaq xoş hal deyil. Hətta Avropa Yayımları Birliyi olduqca hörmətli və nüfuzlu xarici KİV-i rəsmən xəbərdar etmişdi ki, "Eurovision" müsabiqəsi haqqında qeyri-obyektiv və qərəzli materiallar yaymaq lazım deyil. Üstəlik, bu proseslərə siyasi məna vermək cəhdi heyrətləndirir və məyus edir.

*- Siz qeyd etdiniz ki, Bakıda keçiriləcək "Eurovision 2012"-də 40-dan artıq ölkə iştirak edəcək. Bəziləri ifaçının adını və müsabiqədəki mahnını müəyyənləşdirib, digərləri hələ də finaladək son günləri istifadə edir. Bir neçə gün əvvəl mətbuatda məlumat yayıldı ki, Ermənistan "Eurovision"da iştirakdan imtina edib, çünki bu müsabiqə Azərbaycan paytaxtında keçirilir.*

- Məndə və fikrimcə, çoxlarında erməni tərəfinin belə qərarı anlaşılmazlıq yaradır. Avropa Yayımları Birliyi və Azərbaycan hakimiyyəti dəfələrlə təsdiq ediblər ki, Ermənistan daxil olmaqla, bütün ölkələrin müsabiqə təmsilçilərinin və qonaqların təhlükəsizliyinə zəmanət verilir. Şübhəsiz ki, Avropa Yayımları Birliyinin üzvü olan hər bir ölkənin müsabiqədə iştirakdan imtina etməsinə görə öz səbəbləri ola bilər. Lakin təəccüb və təəssüf doğuran odur ki, Yerevanda "Eurovision"da iştirakdan imtinanı Azərbaycanın ünvanına heç bir əsası olmayan çoxsaylı ittihamlarla müşayiət etməyə cəhd göstərirlər.

Təəssüf ki, Azərbaycanda da "ölkə üçün nə qədər pisdirsə, onlar üçün bir o qədər yaxşıdır" prinsipi üzrə uzun müddət yaşayan və fəaliyyət göstərən kateqoriyalı insanlar var. Onların ictimai və siyasi fəaliyyətlərinin məqsədi Azərbaycanda baş verən bütün müsbət hadisələrə qara yaxmaq cəhdidir. Və bizim növbəti qələbəmizi – "Eurovision"dakı qələbəmizi bu insanlar şəxsi faciə kimi qəbul etdilər. Xoşbəxtlikdən belə insanlar cəmiyyətimizin mütləq azlığını təşkil edir və onların Bakıda "Eurovision" müsabiqəsinin keçirilməsinə mane olmaq cəhdləri uğursuzluğa məhkumdur.

# Üç min 630 manata xaricdən bir inək alan dövlət təşkilatı

## "Aqrolizinq" nələr alıb, neçəyə alıb?


Arxiv foto

**«Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti 2004-cü ildə yaradılıb. Bu qurum hökumətin kənd təsərrüfatının inkişafına yardım layihələrini icra edir, fermerlərə güzəştli şərtlərlə texnika, cins mal-qara verir. "Aqrolizinq" ASC 2011-ci ildə 52 milyon 640 min manatlıq tender keçirib. Bu barədə Satınalmalar üzrə Dövlət Agentiliyinin saytında məlumat verilir.**

**BİRİ 3 630 MANATA İNƏK**

"Aqrolizinq" 2011-ci ildə "Swisspoint Merchates Limited"dən 727 min 776 manata 200 baş südlük-ətlik istiqamətli Simmental cinsli, 5082525 manata 1400 baş südlük istiqamətli Holştin-Friz və Svis cinsli mal-qara alıb. 2011-ci ildə cins damazlıq qaramal üçün isə 132 min 260 manata yem alınıb.

**13 MİLYON MANATA GÜBRƏ...**

"Aqrolizinq" ASC-nin Azot NH2NO3 mineral gübrənin alınması ilə bağlı tenderi "Bioline Consulting" LTD udub. Gübrəyə 13 milyon 163 min 904 manat ayrılıb. "Royal Olimpik Group" MMC-dən isə 250 min manata 10 min ədəd gübrə anbarı üçün taxta altlıqları alınıb.

**8 MİN MANATA BİR KOMBAYN TƏMİR OLUNUB**

5 ədəd kombaynın təmir olunması ilə bağlı tenderdə isə "Servis-Reklam LTD" MMC qalib gəlib. 5 kombaynın təmiri üçün MMC-yə 39 min 50 manat ayrılıb. "Aqrolizinq" 644 min 766 manata "Ninox Alliance LTD"dən 10 ədəd taxılyığan kombayn alıb. Traktorların əsaslı təmiri üçün ehtiyat hissələrinin alınmasına 39 min 648 manat ayrılıb.

**AzadliqRadiosu.az saytında "Aqrolizinq" ASC-nin digər xərcləri ilə tanış ola bilərsiniz.**

***Nüşabə Fətullayeva***

# 8 deputat QHT-lərə Dəstək Şurasından qrant alıb

*"Korrupsiometr" proqramında müzakirə zamanı QHT-lərə Dəstək Şurasının nümayəndəsi Sahib Məmmədov bildirib ki, bəzi təşkilatların qeydiyyatı olmadığı üçün onların layihələri maliyyə operatorları vasitəsilə dəstəklənir. Maliyyə operatoru funksiyasında isə dövlət qeydiyyatından keçmiş başqa bir QHT iştirak edir. Yəni əslində Şura layihə üçün maliyyə yardımını bir təşkilata verir, o da aldığı pulu işi həyata keçirəcək başqa bir QHT-yə ötürür. Sahib Məmmədov millət vəkillərinin də QHT-lərə Dəstək Şurasından qrant almalarında qanunsuz bir şey görmür, bir şərtlə ki, onlar aldıqları puldan özlərinə maaş yazmasınlar:* "Mən onun tərəfdarıyam ki, millət vəkili, dövlət xadimi vəsaiti varsa, həm də rəhbəri olduğu QHT varsa, xeyriyyəçi kimi öz təşkilatının layihələrinə yardım etsin. Deputatların əksəriyyəti də seçilməzdən əvvəl QHT rəhbərləri kimi fəaliyyət göstəriblər. Amma deputatın qrantdan maaş almaq ixtiyarı yoxdur. Kimsə qrant alıb cibinə qoyursa, belə düşünürlər ki, deputat da qrantı alıb cibinə qoyacaq. Deputatın təmsil etdiyi təşkilat var, ofis var, işçilər var".

Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı isə qeyd edir ki, ümumiyyətlə, QHT-lərə Dəstək Şurasının şəffaf işlədiyinə inanmır. O, fikrini onunla əsaslandırır ki, Şura üzvlərinin özləri də həmin qurumdan qrant alırlar: "Şura üzvlərinin ən çox marağı qrant almaqdır. Bu, ədalətsizlikdir və qeyri-etik görünür..."

Sahib Məmmədov isə qeyd edir ki, Şuraya təqdim olunan layihələrin hər biri ekspertlər tərəfindən qiymətləndirilir və Şura üzvlərinin öz layihələrinə dəstək verməyə imkanları yoxdur.

Polemikada iştirak edən Seçki Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli qeyd edir ki, bu Şuranın müstəqil qərar qəbul etdiyinə inanmır. Ona görə də


Rəşid Şerifin karikaturası.

insan hüquqları, xüsusilə də siyasi hüquqlar, siyasi azadlıqlar, seçki hüququ, toplaşmaq azadlığı, bu kimi məsələlərlə bağlı layihələrini, ümumiyyətlə, bu Şuraya təqdim etmir: "Düşünmürəm ki, əgər Azərbaycanda bu hüquqların pozulmasında tərəf kimi dövlət iştirak edirsə, bizim dövlətdən bu məsələ ilə bağlı maliyyə dəstəyi üçün müraciət etməmiz bir qədər etik deyil. Siyasi iradə yoxdursa, Dövlət Dəstəyi Şurasından alınan layihələr üçün müraciət etməyin də heç bir əhəmiyyəti olmayacaq".




# AzadlıqFM:

Bu maraqlı veriliş vasitəsilə hər həftənin cümə günü 14:00-15:00 arasında Facebook məkanında baş verən maraqlı olayların müzakirəsinə qa qatıla bilərsiniz. Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər verilişə dəvət edilir. Veriliş eyni vaxtda AzadlıqRadiosunun Facebook səhifəsində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. Azadlıq FM-in arxiv səhifəsi də var.

# Праздник без народа


Arxiv foto

*...Продолжая декларировать на пропагандистском уровне лозунг «Все для народа, во имя народа!», правящая элита на деле старательно реализует принцип - «Но без самого народа!». Строящиеся фешенебельные отели, магазины, виллы, турбазы, спорткомплексы, рестораны, элитные школы и больницы, дворцы, аквапарки, развлекательные центры и пр. по большей части недоступны основной части населения, да и не для них рассчитаны. Если вывести за скобки сферу пропаганды, то «его величество народ» постепенно становится лишним элементом в политической системе современного Азербайджана.*

Показательный пример. Если в прежние годы (и в советские, и в ранние постсоветские) ни одни торжества, праздники или внутренние вояжи главы государства не обходились без фактора «народного присутствия», пусть даже тщательно подготовленного, заорганизованного, то теперь ситуация кардинальным образом изменилась.

**НАРОДНЫЙ БЕЗ НАРОДА**

Например, начиная с прошлого года участие президента, членов его семьи и представителей властвующей элиты на традиционных «всенародных торжествах» в честь весеннего праздника Новруз проходят в условиях полного отсутствия самого народа. С самого утра и почти на весь день вся огромная приморская часть центра города старательно очищается от людей и машин, берется под плотный полицейский кордон и представляет, по сути, безлюдное пространство, утыканное лишь всевозможными праздничными экспонатами. Президент, члены семьи, а следом и вся олигархическая рать торжественно шествуют по опустевшему бульвару, на котором только тщательно отобранные танцоры, спортсмены, ремесленники, кулинары и фольклорные группы со всей страны демонстрируют (только им - избранным) свои умения. Нелепая картина.

Или, взять к примеру, прошлогодний грандиозный военный парад на главной площади страны: опять же вся территория вокруг площади и прилегающие части города оказались полностью недоступны для простых смертных, желающих тоже возгордиться достижениями Азербайджана в области военной техники. Парад тоже был для избранных.

Наблюдая эти одиозные политические реалии, невольно приходишь к мысли, что в основе всего, что сегодня делает власть в Азербайджане, лежит глубокое равнодушие или презрение к собственному народу. По-видимому, власть полагает, что народ - это крепостные или быдло, чьи права, интересы, потребности и мнения не только можно, но и нужно игнорировать. Конечно же, во имя и для блага народа! Но без самого народа!

**ЕДИНСТВЕННЫЙ «ПРАВИЛЬНЫЙ ВЫБОР»**

Фактически власть в последнее время старательно избегает народа, всячески отгораживается от него. Она отказалась даже от прежней практики «выхода в народ» и имитации всенародных гуляний. Должно быть, правящая элита полагает, что народ еще не дорос до демократии, правового государства, гражданского общества и активного участия в жизни страны. Получается, что проблема отнюдь не во власти, а в народе: власти дозрели до всего, а вот все остальные – ещё нет.

Видимо, народ попался такой - отсталый и темный. Вообще, по логике азербайджанских властей, наш народ только в одном случае сумел проявить активность и сделать правильный выбор: когда «призвал» к власти Гейдара Алиева. После чего, опять впал в «темное», «ненужное» состояние. Поэтому во всех остальных случаях с ним можно не считаться. Впрочем, и не считаются!

***Зафар Гулиев***


Мишель Жарро

## Климат изменяется прямо сейчас

**Первая декада нынешнего века была самой теплой с начала систематических метеорологических наблюдений в XIX веке. Об этом говорится в обнародованном сегодня докладе Всемирной метеорологической организации - ведомства ООН по наблюдению за погодой. В докладе также отмечаются чрезмерные дожди и снегопады, вызвавшие наводнения по всему миру и аномальные засухи в Африке и Северной Америке.**

Генеральный секретарь организации Мишель Жарро заявил, что изменение климата происходит прямо сейчас, а не является какой-то отдаленной угрозой. Он предупредил о необратимых последствиях этого процесса.

## На сайте РадиоАзадлыг - radioazadlyg.org:


**Записки полковника. Март 1995. ОМОН. Часть 1. Часть 2**


**"Реформы лучше проведу я"**

# Minsk Qrupu prezidentləri öz xalqlarını sülhə hazırlamağa çağırır



*ATƏT-in Minsk Qrupunun üç həmsədr ölkəsinin – ABŞ, Rusiya və Fransanın xarici işlər nazirləri birgə bəyanatla çıxış ediblər. Hillari Klinton, Sergey Lavrov və Alan Jüpe Minsk Qrupunun yaradılmasının 20-ci ildönümü ilə bağlı münaqişə tərəflərini "davamlı sülhün əldə edilməsi üçün siyasi iradə nümayiş etdirməyə" çağırıblar: "Prezident Medvedev, Obama və Sarkozinin 2011-ci il mayın 24-də Deauville-də verdikləri birgə bəyanatda bildirildiyi kimi, yalnız danışıqlar yolu ilə tapılmış həll variantı sülh, sabitlik və barışığa apara bilər. Münaqişəni hərbi yolla həll etmək cəhdləri isə onsuz da uzun müddətdir ki, qeyri-müəyyən və təhlükəli şəraitdə yaşayan bölgə əhalisinə daha çox acılar yaşadacaq".*

Bəyanatda deyilir ki, yeni nəsil erməni və azərbaycanlıların dinc şəraitdə yanaşı yaşadığını gözüylə görməyib. Bu isə müharibə yaralarını daha da dərinləşdirir. "Buna görə biz liderləri əhalini sülhə hazırlamağa çağırırıq", – deyə nazirlər bildirirlər. Bəyanatda qeyd edilir ki, sülh prosesində irəliləyişlər var.

"2012-ci il yanvarın 23-də Rusiyanın Soçi şəhərində prezidentlər Əliyev, Sarkisyan və Medvedev birgə bəyanat verərək iki tərəfin baza prinsipləri üzrə razılaşma əldə edilməsi prosesini sürətləndirmək sahəsində israrlı olduqlarını bir daha təsdiqlədilər. Biz liderləri çağırırıq ki, çərçivə razılaşması, bunun ardıncasa yekun həll variantının hazırlanması yönündə işləri mümkün qədər tez yekunlaşdırsınlar..." – deyə Hillari Klinton, Sergey Lavrov və Alan Jüpe öz bəyanatlarında qeyd edirlər.

# Rəsul Quliyev debata çağırır



Rəsul Quliyev

**Mart ayının 17-də hökumət qüvvələri ilə Xüsusi Təyinatlı Polis Dəstəsi (OMON) arasında yaşanan silahlı qarşıdurmanın 17 ili tamam oldu. O hadisələr barədə AzadlıqRadiosunun suallarını o vaxt parlamentin sədri olmuş, hazırda mühacirətdə yaşayan Rəsul Quliyev cavablandırıb. Eks-spikerlə həmin müsahibənin son dövrlərə aid olan hissəsini təqdim edirik:**

**«REJİMİN EROZİYASI BAŞLAYIB»**

*- Rəsul müəllim, Quba rayonunda baş verən kütləvi etiraz aksiyasından xəbəriniz var. Bu məsələyə sizin münasibətinizi bilmək maraqlı olardı.*

- 1995-ci ilin mart hadisələrindən sonra dövlətçiliyin əvəzinə Heydər Əliyev diktaturası yaradıldı. Yəni onun diktaturasının tarixi mart ayından başlayır. Həmin vaxtdan start götürüb bu diktatura. Marta qədər Heydər Əliyev bir qədər ehtiyatlanırdı. Çünki müxalif silahlı qüvvələr hələ var idi. Amma martdan sonra, əlbəttə ki, onun qarşısındakı bütün baryerlər dağıldı və Heydər Əliyev həmin o diktatura rejimini yaratdı. Artıq 1996-cı ildən yaranmış bu diktatura rejimi 16 ildir davam edir. İndi isə o rejimin eroziyası başlayır. İndi həmin o diktatura rejiminin köməksizliyi ortaya çıxır. Biz yenidən 1988-93-cü illərin vəziyyətinə qayıdırıq. Mən sizi əmin edirəm ki, bax, bu Quba hadisələri Azərbaycan tarixində yenə də həmin ssenari ilə inkişaf edəcək. Yəni o dediyim hökumətin köməksizliyindən yaranan xaos ssenarisi ilə.

*- Həmin ssenarinin qarşısını hansı yolla almaq mümkündür?*

- Əgər tez bir zamanda Azərbaycanda siyasi və iqtisadi islahatlar həyata keçirilməsə, bunun qarşısını heç cür almaq mümkün olmayacaq.

**SİYASİ VƏ İQTİSADİ İSLAHATLAR OLMALIDIR**

*- Bu islahatları necə görürsünüz?*

- Siyasi islahatlar aydındır. Demokratik seçkilər olmalı, dövlətin üç müstəqil qolu yaranmalıdır. Özü də bu, mütləq yerinə yetirilməlidir. Yarımçıq yox. Ümumiyyətlə, yarımçıq demokratiya heç bir işə yarayan şey deyil. Sözün əsl mənasında demokratiya yaranmalıdır. Bu, ilk növbədə dediyim siyasi islahatlardır. İqtisadi islahatlar barədə danışmaq uzun çəkər. Qısaca onu deyə bilərəm ki, bu iqtisadi islahatlar ölkədə olan korrupsiya və rüşvətə son qoymalıdır. Əks halda, dediyim kimi, artıq Quba hadisələri ilə hökumətin köməksizliyindən əmələ gələcək xaosa start verilib.

*- Və nəhayət, 2013-cü ilin prezident seçkiləri barədə soruşmaq istəyirik. Namizədliyinizi vermək barədə qəti qərara gəlmişsiniz? Ya hələ də yox?*

- Bilirsiniz, düşünürəm ki, dediyim o siyasi və iqtisadi islahatları bu gün Azərbaycanda hamıdan yaxşı həyata keçirə bilərəm. Daha doğrusu, buna əminəm.

*- Amma başqaları da buna əmin olmalıdır axı.*

**«DEBATA ÇIXAQ»**

- Tutaq ki, hökumətin buna şübhəsi var. Demək istəyir ki, sözdür də danışıram. Mən razıyam. Prezidentləri iyirmi nəfər - kimi istəyir, başbilənlərini yığsın, başda özü olmaqla, mən də tək, debata çıxaq. Onlar desinlər Azərbaycanın gələcəyini necə görürlər, nə edəcəklər, mən də deyim. Əgər onlar debatı qazansalar, mən namizədliyimi verməərəm.

*- İndi hələ ki, debatı qazanmayıblar, belə bir debatın olacağından da olmayacağı daha realdır. Namizədliyinizi verəcəksiniz?*

- Elə ona görə də, əlbəttə, mən namizədliyimi verməyə cəhd edəcəyəm. Çünki, düşünürəm ki, ömrümün artıq qüruba gedən bu çağında mən hələ Azərbaycan xalqı qarşısında öz borcumu verib qurtarmamışam.

*- Amma səsiniz heç də qüruba gedən ömürdən gələn səsə oxşamır.*

- Yox, bilirsiniz, mən yaşlı olmağına yaşlıyam. Amma fikirlərim qocalmayıb.

***İlqar Rəsul***

# Sovet dövründən qalmış əmanətlərin qaytarılması qaydası

(Tam sənəd və internetdə hesablama kalkulyatoru)



USSR -- 100 rubles banknote, undated

*"AzərTAc" Dövlət İnformasiya Agentliyi sovet dövründən qalmış əmanətlərin hansı qaydada qaytarılacağına dair prezidentin fərmanını yayıb. Əmanətlərin qaytarılıb-qaytarılmayacağı mövzusu uzun illərdir cəmiyyətin əsas suallarından biri olduğunu nəzərə alıb sənədi olduğu kimi veririk.*

**AzadliqRadiosu.az saytında kalkulyator**

**Sənədlə tanışlıqdan öncə xatırladaq ki, internetdə AzadliqRadiosu.az və ya azadliq.org saytına girin, iqtisadiyyat bölümündə bu yazı ilə başlığı eyni olan məqaləni tapın və orada yerləşdirilən xüsusi kalkulyatora əmanətinizin məbləğini yazıb, «Calculate» düyməsini basın. Alacağınız məbləğ dəqiq olaraq hesablanacaq.**

*Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi Qaydaları*

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli fərmanı ilə təsdiq edilib.

1. Ümumi müddəalar

Bu Qaydalar 1992-ci il 1 yanvar tarixinə keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının əmanətçiləri olan və həmin bankın hüquqi varisi "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətində (bundan sonra – Bank) bu Qaydaların qüvvəyə mindiyi tarixə şəxsi əmanət hesablarının qalıqlarını saxlamış Azərbaycan Respublikası vətəndaşlarına və ya onların vərəsələrinə, həmin hesabdakı qalıqlar nəzərə alınmaqla, fərdi birdəfəlik ödəmələrin (bundan sonra – birdəfəlik ödəmə) verilməsinin prinsiplərini, hallarını və şərtlərini müəyyən edir.

2. Əsas anlayışlar

2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

2.1. əmanətçi - 1992-ci il 1 yanvar tarixinə keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında əmanəti olan və bu Qaydalar qüvvəyə mindiyi tarixə Bankda əmanət qalığını saxlamış Azərbaycan Respublikası vətəndaşları və ya onların vərəsələri;

2.2. əmanət qalığı - əmanətçilərin 1992-ci il 1 yanvar tarixinə keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında şəxsi əmanət hesablarında olan və 1992-ci il avqustun 15-dən Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması zamanı hesablaşmalarda müəyyən edilən manatın rubla olan nisbəti (1 Azərbaycan manatı = 10 rubl) və 2006-cı il yanvarın 1-dən həyata keçirilmiş manatın denominasiyası (1 yeni Azərbaycan manatı = 5000 Azərbaycan manatı) nəzərə alınmaqla, bu Qaydaların qüvvəyə mindiyi tarixə Bankda saxladığı pul vəsaitləri;

2.3. əmanət (bank) kitabçası - keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında əmanətçiyə şəxsi əmanət hesabının açılmasını və bu hesabda pul vəsaitinin olmasını təsdiq edən sənəd;

2.4. rubl – keçmiş Sovet Sosialist Respublikaları İttifaqında istifadə edilən pul vahidi;

2.5. manat – 2006-cı il 1 yanvar tarixindən Azərbaycan Respublikasının ərazisində ödəniş vasitəsi kimi işlədilən pul vahidi;

2.6. müvəkkil bank – keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının hüquqi varisi olan "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti;

2.7. vərəsə - vəfat etmiş (ölmüş) əmanətçinin (miras qoyanın) mülki qanunvericiliklə müəyyən edilmiş qaydada əmlakının (əmanətinin) keçdiyi Azərbaycan Respublikasının vətəndaşları olan şəxslər.

3. Birdəfəlik ödəmə, onun hesablanması qaydası və maliyyə mənbəyi

3.1. Əmanətçilərə dövlət tərəfindən bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulan qaydada hesablanmaqla birdəfəlik ödəmə verilir.

3.2. Birdəfəlik ödəmə, əmanət qalığının məbləğindən asılı olaraq, aşağıdakı cədvəldə müəyyən edilmiş qaydada hesablanır:

| Əmanət qalığı (manat) | Hesablanma qaydası |
|---|---|
| 0,04 manata (2000 rubla) qədər olduqda | Əmanət qalığının hər bir qəpiyi üçün 75 manat |
| 0,04 manatdan 0,1 manata (2000 rubldan 5000 rubla) qədər olduqda | 300 manat + 0,04 manatdan artıq olan əmanət qalığının hər bir qəpiyinə 50 manat |
| 0,1 manatdan 0,2 manata (5000 rubldan 10000 rubla) qədər olduqda | 600 manat + 0,1 manatdan artıq olan əmanət qalığının hər bir qəpiyinə 40 manat |
| 0,2 manatdan (10000 rubldan) yuxarı | 1000 manat + 0,2 manatdan artıq olan əmanət qalığının hər bir qəpiyinə 25 manat |

4. Birdəfəlik ödəmənin verilməsi qaydası və müddəti

4.1. Birdəfəlik ödəməni almaq üçün əmanətçi şəxsi əmanət hesabını bağlamaq barədə müvəkkil banka ərizə ilə müraciət etməli və ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

4.1.1. əmanət (bank) kitabçası və ya bu Qaydaların 4.3-cü bəndinə uyğun olaraq onu əvəz edən sənəd;

4.1.2. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi;

4.1.3. soyad və ad dəyişikliyi olduğu halda, həmin dəyişikliyi təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti;

4.1.4. vəsait vərəsələrə ödəniləcəyi halda vərəsələrin miras əmlaka (əmanətə) hüquqları barədə sənədin notarial qaydada təsdiq edilmiş surəti və ya bu barədə müvafiq məhkəmə qərarı.

4.2. Bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulmuş sənədləri Banka təqdim edən əmanətçilərin əmanət (bank) kitabçasında olan məlumatlar (bankın adı və olduğu yer, əmanət filiala qoyulduqda isə həm də müvafiq filialın adı və olduğu yer, əmanət üzrə hesabın nömrəsi, habelə hesaba köçürülmüş pul vəsaitinin bütün məbləğləri, hesabdan silinmiş pul vəsaitinin bütün məbləğləri və əmanət (bank) kitabçasının banka təqdim olunduğu anadək hesabdakı pul vəsaitinin qalığı və həmin məlumatların bank tərəfindən təsdiqi) Bankda olan sənədlərdəki məlumatlarla tutuşdurulur.

***(davamı səhifə 10-da)***

# Azərbaycanda 5 kişidən 1-i siqaretdən ölür



ABŞ-ın Ərzaq və Dərman Administrasiyasının siqaret qutularının üstünə təklif etdiyi 36 şəkildən biri

**TÜTÜN VƏ AZƏRBAYCAN**

Azərbaycanda kişilər arasında ölümlərin 22,3 faizinin, qadın ölümlərinin isə 6,5 faizinin səbəbkarı tütündür. Azərbaycanda bir ildə adambaşına (istər çəkən olsun, istər çəkməyən) 1877 siqaret satılır. Bu o deməkdir ki, Azərbaycanda bir ildə satılan siqaretlərin sayı hazırda 17 milyard səviyyəsindədir.

**ERMƏNİSTAN, GÜRCÜSTAN**

Ermənistanda kişi ölümlərinin 32,7 faizi, qadın ölümlərinin 7,7 faizi tütündəndir. Ermənistanda bir ildə adambaşına 1620 siqaret satılır. Gürcüstanda vəziyyət Azərbaycan və Ermənistandan xeyli fərqlidir. Burda kişi ölümlərinin 15,7 faizi, qadın ölümlərinin cəmi 0,9 faizi birbaşa tütündəndir. Gürcüstanda bir ildə satılan siqaretlərin sayını adamların sayına böləndə, adambaşaına 1039 siqaret düşür. Bütün bunlar "Tütün Atlası" adlı yeni hesabatdandır.

**İLƏ 6 MİLYON ÖLÜM**

"Tütün Atlası"na görə, dünyada hər il tütündən 6 milyon adam ölür. İldə bu qədər adam öldürən tütündən siqaret düzəldibsatan şirkətlərin mənfəəti isə 35 milyard dollardır. Bunun nə qədər böyük məbləğ olduğunu təsəvvür etmək üçün deyilir ki, bu, "Coca-Cola", "Microsoft" və "McDonald"s kimi şirkətlərin birgə mənfəətinə bərabərdir.

**10 İLƏ 43 TRİLYON SİQARET**

"Tütün Atlası" adlı hesabatı Dünya Ağ Ciyər Fondu və Amerikanın Xərçəng Cəmiyyəti hazırlayır. Builki "Tütün Atlası"ndə deyilir ki, bu xəritələr 4-cü dəfədir ki, hazırlanır və 2002-ci ildə çıxan birinci atlasdan bu günə kimi dünyada siqaretdən 50 milyon adam ölüb. Son 10 ildə dünyada 43 trilyon siqaret çəkilib."Tütün Atlası" dünyada tütünə aludəçiliyi tütün epidemiyası adlandırır.

Dünyadakı təmayüllər isə belədir:

- Tütündən ölümlərin 80 faizi kasıb və orta gəlirli ölkələrin payına düşür.
- Bu gün dünyada kişilər arasında ölümlərin 15 faizinin, qadın ölümlərinin 7 faizinin günahkarı tütündür.
- Özü də bu, tütünün birbaşa günahkar olduğu ölümlərin sayıdır.

Atlasda deyilir ki, tütün 4 əsas xəstəliyə- xərçəng, ürək, şəkər və nəfəs borusu xəstəliklərinə aparan risk faktorudur. Dünyada ölümlərin 63 faizi bu 4 xəstəliyin payına düşür.

**TÜRKİYƏDƏ KİŞİLƏRİN 38 FAİZİ TÜTÜNDƏN ÖLÜR**

Çində tütün bir nömrəli killerdir. O, 1 milyon 200 min adam öldürür. 2030-cu ilə bu ölümlərin sayı 3 milyon 500 minə çatmalıdır. Türkiyədə kişilər arasında ölümlərin 38 faizinə səbəbkar tütündür. Qazaxıstanda bu, 35 faizdir. Maldiv adalaraında ölən qadınların 25 faizi tütündən ölür. Bu göstərici ABŞ-da 23 faizdir.

**CANA VƏ CİBƏ ZİYAN**

Bir qutu siqaret çəkməklə ABŞ vətəndaşı öz sağlamlığına 35 dollarlıq ziyan vurur. 2000-2004-cü illərdə ABŞ-da ildə 71 milyard siqaret satılıb. Siqaret çəkməklə bağlı ABŞ iqtisadiyyatına ildə 193 milyard dollar ziyan dəyir.

***Elxan Nəsibli***

# Sovet dövründən qalmış əmanətlərin qaytarılması qaydası

*(əvvəli səhifə 9-da)*

Tutuşdurma zamanı məlumatlar öz təsdiqini taparsa, əmanətçiyə birdəfəlik ödəmənin verilməsi bu Qaydalara uyğun olaraq Bank tərəfindən həyata keçirilir.

Tutuşdurma zamanı məlumatlarda uyğunsuzluq aşkar edildikdə, əmanətçinin müraciəti əsasında bu Qaydaların 5-ci bəndində göstərilən Xüsusi Komissiya tərəfindən araşdırma aparılır və müvafiq qərar qəbul edilir.

4.3. Əmanət (bank) kitabçası itirildikdə və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düşdükdə, əmanətçinin verdiyi məlumatlar üzrə Bankda tutuşdurma aparılır. Tutuşdurma nəticəsində əmanətçinin öz ərizəsində verdiyi məlumatlar təsdiqini taparsa, Bankın təklifi ilə bu Qaydaların 5-ci bəndində göstərilən Xüsusi Komissiyanın qərarı əsasında əmanətçiyə əmanət (bank) kitabçasını əvəz edən sənəd verilir və birdəfəlik ödəmənin verilməsi həmin sənədə əsasən həyata keçirilir. Əmanət (bank) kitabçasını əvəz edən sənədin formasını Xüsusi Komissiya təsdiq edir.

4.4. Birdəfəlik ödəmə əmanətçinin arzusu ilə nağd qaydada və ya onun digər bank hesabına köçürülməsi yolu ilə verilir.

4.5. Birdəfəlik ödəməni almış əmanətçinin Banka qarşı bütün tələbləri təmin edilmiş hesab olunur və əmanətçinin əmanət qalıqları üzrə bank müqaviləsinə həmin məbləği aldığı gündən xitam verilir.

Əmanət qalıqları üzrə Bank əmanəti müqaviləsinə xitam verilməsi birdəfəlik ödəmənin verilməsi üçün əsasdır.

4.6. Birdəfəlik ödəmənin alınması ilə bağlı bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulmuş qaydada 2012-ci il 31 dekabr tarixinədək Banka müraciət edilir. Həmin müddətdən sonra müraciətlər qəbul edilmir və onlara baxılmır.

4.7. Birdəfəlik ödəmənin alınması üçün əmanətçilərin müraciət etməsi və həmin ödəmələrin verilməsi müddəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada uzadıla bilər.

5. Birdəfəlik ödəmənin verilməsi üzrə yaradılmış Xüsusi Komissiyanın fəaliyyəti

5.1. Birdəfəlik ödəmənin verilməsi üzrə yaradılmış Xüsusi Komissiya həmin birdəfəlik ödəmənin verilməsi zamanı yaranmış mübahisəli məsələlərə baxır və bu işlərə ümumi nəzarəti həyata keçirir. Xüsusi Komissiyanın birdəfəlik ödəmənin verilməsinə dair qəbul etdiyi qərarlar Bank üçün məcburidir. Əmanətçi Xüsusi Komissiyanın qərarından qanunla müəyyən edilmiş qaydada aidiyyəti üzrə məhkəməyə müraciət edə bilər.

5.2. Xüsusi Komissiyanın işinə aidiyyəti dövlət orqanlarının nümayəndələri cəlb edilir (ezam edilir) və onlar birdəfəlik ödəmələrin verilməsi başa çatanadək müvafiq işlərin həyata keçirilməsinə ödənişli əsaslarla təhkim edilirlər.

5.3. Xüsusi Komissiya birdəfəlik ödəmənin verilməsi vəziyyəti barədə hər növbəti ayın 10-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə aylıq hesabat təqdim edir.

# Heydər Əliyev Fondu Romanın məşhur muzeyini bərpa edir


Kapitoli Muzeyi

Romanın Kapitoli Muzeyində bərpa işlərinin bir hissəsi Heydər Əliyev Fondunun ayırdığı maliyyə ilə həyata keçirilir. AzərTAc-ın məlumatına görə, bunu Azərbaycanın İtaliyadakı səfiri Roma şəhərinin meri Canni Alemanno ilə görüşündə bildirib. Səfirin sözlərinə görə, bu, Azərbaycanın İtaliya, xüsusilə də Roma şəhəri ilə dostluq münasibətlərinin daha da gücləndirilməsinə töhfə verəcək. Mer Alemanno Heydər Əliyev Fondu tərəfindən Roma şəhərinin Kapitoli Muzeyində bərpa işləri üçün maliyyə dəstəyinin Azərbaycan tərəfinin yalnız İtaliyanın deyil, bütövlükdə bəşəriyyətin mədəni irsinin qorunmasına verdiyi töhfəsi kimi qiymətləndirib və Heydər Əliyev Fonduna minnətdarlığını bildirib. Romadakı Kapitoli Muzeyi dünyada əhali üçün açıq olan ən qədim muzeydir.

Birinci ledi Mehriban Əliyevanın rəhbərlik etdiyi fondun bərpa işlərinə nə qədər vəsait xərclədiyi açıqlanmır. Fond indiyəcən maliyyə qaynaqlarını da açıqlamayıb. 2009-cu ildə Heydər Əliyev Fondu Avropanın ən möhtəşəm memarlıq abidələrindən olan - Fransanın Strasburq şəhərindəki kafedral kilsəyə - «Bizim ledi» kilsəsinə 40 min avro bağışlamışdı. Kilsədən bildirmişdilər ki, 40 min avro kilsənin iki böyük pəncərəsinin təmirinə istifadə ediləcək.

# Azərbaycan finalda 13-cü çıxış edəcək



Səbinə Babayeva

**"Eurovision" Mərkəzində Azərbaycanın ev sahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi ilə bağlı püşkatma mərasimi keçirilib. Püşkatma mərasimində mayın 22-si və 24-də keçiriləcək yarımfinal mərhələlərində çıxış edəcək 36 ölkənin "Baku Crystal Hall" səhnəsində çıxış nömrələri məlum olub.**

Mərasim Azərbaycanın paytaxtı Bakı şəhərinin görüntülərindən ibarət hazırlamış xüsusi video-rolikin nümayişi ilə başlayıb. Püşkatma mərasiminin aparıcıları qonaqları Azərbaycan və ingilis dillərində salamlayıblar. "Eurovision" mahnı müsabiqəsinin icraçı rəhbəri Yan Ola Sand Azərbaycana artıq dəfələrlə gəldiyini bildirib. Sonra müsabiqənin püşkü atılıb.

Mayın 22-də keçiriləcək I yarımfinalda çıxış edəcək ölkələrin ardıcıllığı belədir. Monteneqro 1, İslandiya 2, Yunanıstan 3, Latviya 4, Albaniya 5, Rumıniya 6, İsveçrə 7, Belçika 8, Finlandiya 9, İsrail 10, San-Marino 11, Kipr 12, Danimarka 13, Rusiya 14, Macarıstan 15, Avstriya 16, Moldova 17 və İrlandiya 18-ci çıxış edəcək. Mayın 24-də keçiriləcək II yarımfinalda çıxış edəcək ölkələrin çıxış ardıcıllığı isə belədir: Serbiya, Makedoniya, Niderland, Malta, Belarus, Portuqaliya, Ukrayna, Bolqarıstan, Sloveniya, Xorvatiya, İsveç, Gürcüstan, Türkiyə, Estoniya, Slovakiya, Norveç, Bosniya Herseqovina və Litva.

Mayın 26-da keçiriləcək və Azərbaycanın da çıxış edəcəyi final mərhələsində Böyük Britaniya 1-ci, İtaliya 10-cu, Azərbaycan 13-cü, İspaniya 19-cu, Almaniya 20-ci, Fransa isə 9-cu çıxış edəcək.

Finalda yarışacaq digər ölkələr isə yarımfinallarda səsvermə zamanı məlum olacaq. Finala keçən ölkələrin finalda çıxış nömrəsi yarımfinaldan sonra keçiriləcək püşkatma mərasimində məlum olacaq. Püşkatma mərasimi ənənəvi olaraq bu dəfə də eurovision.tv saytında canlı yayımlanıb.

# AzadlıqRadiosunu Androiddə dinləmək olar




**Əvvəllər AzadlıqRadiosunu canlı olaraq mobil telefonlarda necə dinləmək barədə məlumat vermişdik.**

Bildiririk ki, indi xüsusi mobil App telefonuna yükləməklə AzadlıqRadiosunu Android əməliyyat sistemi ilə işləyən mobil telefonlarda da izləmək olur.

Əlavəni yükləməklə mobil telefonunda nələr əldə edirsən:

• Gündə 24 saat və həftənin 7 günü Radionu canlı, ya da arxivdən dinləyərkən yazıları oxumaq,

• Səhifəyə internetdə olmadan - offline rejimdə baxmaq üçün yazıları, videoları və ya audionu yükləmək,

• Audioları birbaşa arxivdən dinləmək (podcast),

• AzadlıqRadiosunun yayım cədvəlinə baxıb, növbəti proqramlar haqda əvvəlcədən xəbər tutmaq,

• Səsləri audio arxivdə axtarmaq,

• Təcili xəbərin, foto və ya videon varsa bu əlavəmizdən istifadə etməklə paylaşmaq,

• Xəbərlərini, video və fotolarını e-mail, Twitter və Facebook vasitəsilə paylaşmaq.

**Əlavəni**

http://www.azadliq.org/info/mobile_new/2178.html internet ünvanından telefona yükləmək olar.

# Hansı yol azadlığa aparır?

**GƏNCLƏR NƏ İSTƏYİRDİ?**

Böyük fasilədən sonra gənclərin mitinqi oldu və nə qədər təəccüblü olsa da, hakimiyyət bu mitinqin keçirilməsinə razılıq verdi. İndi bunun səbəbi, motivi haqda danışmaq bəlkə də yersizdi, çünki bu, artıq keçmiş zamandır, keçmiş isə mətbuat adamlarından daha çox tarixçilərin predmetidir.

Sadəcə, burada bir məsələni qeyd etmək istərdik. Demokratiya tək ona görə olmur ki, bunun keşiyində milyonlarla insan dayanır, minlərlə insan bu yolda özünü qurban verməyə hazır olur, həm də ona görə olur ki, bu, bir mədəniyyətdir və özünü mədəni insan hesab edən kəs həm də başqasının fikrinə diqqətli olur, onun bu fikri ifadə etməsi üçün şərait yaradır.

Mən gənclərin mitinqi haqda rəsmi adamların açıqlamalarına diqqət etdim. Əsas motiv bu idi ki, aksiya dediniz və biz də icazə verdik, amma özünüz gördünüz ki, siz azlıqdasınız! Rəsmilər gənclərin mitinqdə nə dediklərinin fərqinə varmadılar, tutaq ki, onları təmsil edənlərlə görüşmək qərarına gəlmədilər, sadəcə, o aksiyanı özlərinin böyük güzəşti kimi təqdim etdilər.

Mən demək istəmirəm ki, bu gün etiraz edənləri çoxluq kimi qəbul etmək lazımdır. Yox, mən bunu iddia etmirəm.

**AZADLIQ BƏS EDƏ BİLƏRMİ?**

Burada bir detalı sizin yadınıza salmaq istərdim. Ötən ilin sonunda qonşu Rusiyada bir qadın aksiya zamanı maraqlı fikir demişdi: «Biz istədiyimizi oxuyur, demək istədiyimizi deyir və uşaqlarımıza istədiyimiz yerdə təhsil veririk. Bunun özü azadlıq deyilmi?». O vaxt həmin qadının dediyi sözlər haqda çox düşündüm və mənə elə gəldi ki, azadlıq insan ətrafındakı boş fəza kimidir, kimi bu fəzanı tam əhatə edə bilmir, kimi üçünsə o, azlıq təşkil edir. İndi mən bu yazının ən mübahisəli tezisini deyəcəm.

Hətta ötəri müşahidələr bəs edir ki, belə sadə qənaətə gələsən ki, bu gün Azərbaycanda azadlıq istəyənlər kəmiyyətcə elə də böyük kəsim deyillər. Böyük əksəriyyət mövcud siyasi – sosial sistemin daxilində özünü daha rahat hiss edir. Amma bu detal əsas verirmi ki, insan avtoritar sistemdə yaşamalı olsun? Məncə yox, çünki bu dünyada mövcud olan azlıqların təcrübəsindən onlarla misal gətirmək olar.

Hətta elə azlıqlar var ki, onlar çox güman ki, heç vaxt çoxluq olmayacaqlar, lakin onlar özləri üçün zəruri olan güzəşt və hüquqları çoxluqdan ala biliblər. Əgər indi ölkə heç olmasa çoxluq üçün azad olsaydı, mən bunu liberal dəyərlərin kasadlığı kimi yozardım və ölkədəki demokratiyanı daha çox totalitar demokratiyaya bənzədərdim. Amma bu ölkədə hətta çoxluğun azadlığı üçün şərait yoxdur, sadəcə, böyük əksəriyyət mövcud olan minimal sərbəstliyi özü üçün azadlıq hesab edir, bununla kifayətlənir.

Müxtəlif quruluşlarda insanla hakimiyyətin, dövlətin arasında arakəsmələr olur. Totalitar quruluşda bu arakəsmə demək olar ki, mövcud olmur. Avtoritar sistemdə isə kiçik bir arakəsmə yaranır və insanlar bir müddət bunu avtonomluq və azadlıq kimi qəbul edir.

Sovetlərin süqutu azərbaycanlıların həyatında belə bir görüntü yaradıb: pulun, imkanın varsa, istəyirsən özünə beşmərtəbəli ev tik, heç kim səndən soruşmayacaq ki, filan materialı haradan almısan və yaxud istədiyin musiqini dinlə, ürəyin istəyən dinə etiqad et, ürəyin istəyən paltarı geyin!



Gənclərin 17 mart mitinqi

Bəli, bunların hamısı bu gün var və bütün bunlar bir azadlıq görüntüsü yaradır. Və çox adam da heç fərqinə varmır ki, azadlıqlar içində həm də istədiyin adama səs vermək, bu və ya digər məsələ haqda məlumat almaq, öz etirazını ifadə etmək kimi bir çox azadlıqlar da var. Ona görə də bu gün ümumi fondan vacib detalı seçib ayırmaq lazımdır.

**VƏTƏNDAŞ HAQLARI – ƏSL AZADLIĞA APARAN YOL!**

İndi Azərbaycanda tam birtərəfli nəzarət hökm sürür: hakimiyyət cəmiyyətin həyatına nəzarət edir, amma cəmiyyətin əks nəzarəti yoxdur. Ona görə də fərdin və cəmiyyətin hakimiyyətin izafi nəzarətindən sığortası yoxdur və bu, istənilən vaxt hakimiyyətin cəmiyyətin və fərdin həyatına lazım olandan çox və bəzən də zorakı müdaxilə etməsinə gətirib çıxara bilir.

Belə olan təqdirdə Siz özünüzü azad hesab edə bilərsinizmi? Əminsinizmi ki, bir gün evlərinizi uçuraraq mülkiyyət hüququnuzu pozmayacaqlar və yaxud da Sizi rüşvət və yaxud «şirinlik» vermək məcburiyyətində qoymayacaqlar?

***Hüseynbala Səlimov,***
***müstəqil analitik***

# Müsəlman və xristianlar birgə yürüşdə



**Sülh Marşı bu ilin iyulunda Rusiyanın Kazan şəhərindən start götürəcək və 4 ay davam edəcək. Yürüş Qüdsdə yekunlaşacaq.**

**«Tariq Al Qadr» adlandırılan sülh və razılıq marşında 36 könüllü iştirak edəcək. Yürüşün marşrutu elə seçilib ki, dindarlar 5 sivilizasiyanı əhatə edən yerlərdən keçəcəklər. Onların yolunun üstünə slavyanlar, türklər, Qafqaz xalqları və ərəblər çıxacaq.**

Yolun ümumi uzunluğu 6767 km təşkil edir ki, bunun da 3570 km-ni yürüşçülər avtobusla, 1000 km-ni gəmiylə, yerdə qalan 2 min km-dən çox məsafəni isə piyada gedəcəklər. Marşın piyada hissəsinə Qroznıdan start veriləcək.

Təşkilatçılardan biri, İnsan Hüquq və Azadlıqlarının Müdafiəsi Hərəkatının rəhbəri Deni Yəhyayev deyib ki, marşın əsas məqsədi millətlər və konsessiyalararası əlaqələri gücləndirməyə yönəlib: «Yalnız dinlərarası barış bütün dünyada sülhün qorunmasına kömək edə bilər».

# Yuri Şevçuk: "Musiqiçilərdən əlinizi çəkin!"



Yuri Şevçuk

*Rusiyalı rok ifaçısı, «DDT» qrupunun solisti Yuri Şevçuk martın 23-də Londonda keçirdiyi konsert zamanı azərbaycanlı rokçuların saxlanmasına münasibət bildirib: «Musiqiçilər qeyri-adi məxluqlardır, Azərbaycanda da, Rusiyada da, Londonda da. Musiqiçilər azaddırlar. Onların Allahdan başqa sahibi yoxdur. Musiqiçiləri incitmək olmaz. Musiqi azadlıqdan irəli gəlir, musiqiçilərdən əllərinizi çəkin!».*

«DDT» rok qrupu 1980-ci ildə yaradılıb. Martın 17-də müxalif və müstəqil gənclər təşkilatlarının Bakıda keçirdiyi icazəli mitinqin sonunda «Bulistan» rokqrupunun 2 üzvü saxlanılıb. Qrupun solisti Camal Əlinin mitinq zamanı oxuduğu mahnıda qeyri-etik sözlərin olması mübahisə yaradıb. Bu zaman Camal Əli prezidentin ünvanına söyüş səsləndirib.

Gənclər arasında yaranan mübahisəyə mülkigeyimlilər və polis müdaxilə edib. Camal Əli və daha 2 gənc saxlanılıb. Səbayel Rayon Məhkəməsi onlar barəsində inzibati həbs qərarı çıxarıb. Qrupun gitaraçısı Natiq Kamilov və blogger Etibar Salmanlı artıq azad olunublar. Qrupun solisti Camal Əlinin isə həbs müddəti martın 27-də sona çatır.

# Zəlimxan Yaqubun hər iki böyrəyi çıxarıldı



Sabiq millət vəkili, Xalq şairi Zəlimxan

Yaqub ağır cərrahiyyə əməliyyatına məruz qalıb. Onun hər iki böyrəyini çıxarıblar. Bu barədə Z.Yaqubun özü Modern.az saytına verdiyi eksklüziv açıqlamasında bildirib. Almaniyadan Azərbaycana dönən şair hazırda Bakıda öz evindədir: "Hələ bir il böyrəksiz yaşayacağam. Buna görə də həftədə 3 dəfə dealiz seansına gedirəm. Həkimlər belə məsləhət gördülər. Bir ildən sonra mənə böyrək köçürəcəklər".

# Himnin yerinə - "Borat" filmindən parodiya

*Qzaxıstanın Xarici İşlər Nazirliyi bəyanat verib ki, Qazaxıstanın himninin yerinə parodiyanı səsləndirmək qalmaqaldır və bu, araşdırılmalıdır. Küveytdə beynəlxalq atıcılıq yarışlarında birinci yeri tutan qazaxıstanlı qalibin şərəfinə Qazaxıstan himninin yerinə səhvən "Borat" komediyasından parodiyanı səsləndiriblər. Qazaxıstanın nümayəndə heyəti bunun səbəbini soruşub, ancaq təşkilatçılar rəsmi cavab verməyiblər.*

Britaniyalı aktyor Sacha Baron Cohenin iştirak etdiyi "Borat" filmi guya qazaxıstanlı olan jurnalistin Amerika macəralarından bəhs edir. 2006-cı ildə çəkilən bu film təhqiredici sayılaraq Küveytdə və bir çox ərəb ölkələrində qadağan olunub. Amma film ABŞ-da "Golden globe" mükafatına layiq görülüb.

"Oskar"a namizədliyi irəli sürülsə də, mükafat ala bilməyib.

# Göbbels nüfuzlu mükafata layiq görüldü

Dünyada teatr sahəsində ən nüfuzlu mükafat sayılan - Beynəlxalq İbsen Mükafatı alman bəstəkarı və orkestr bədii rəhbəri Heiner Göbbelsə verildi. Goebbels mükafata teatr sahəsindəki yeniliklərinə görə layiq görülüb.Onun musiqi əsərlərində müxtəlif üslublar sintez edilir: klassik musiqi, jazz və rok elementləri birləşdirilir. Səhnədə isə klassik tamaşa və opera arasındakı sərhədlər götürülür.

60 yaşlı bəstəkarın məşhur səhnə işlərinin çoxu tanınmış alman yazıçısı, Şərqi Almaniyadan olan Heiner Müller ilə əməkdaşlıq nəticəsində yaranıb.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Zahir Əzəmət: **"Sanki AYO yoxdur, yalnız fərdlər qalıb"**




**"Oxu zalı"nda "Quqark" romanının müzakirəsi davam edir**



Nigar Köçərli: **"Milli Kitab Mükafati bu ilin avqustunda olacaq, əgər..."**




Zümrüd Yağmur: **"Mətbəə siyasi səbəbdən romanımın çapından imtina etdi"**



**Fellini və Tarkovski üçün ssenari yazmış Querra vəfat etdi**

# Salman Rüşdünün Hindistan səfəri

## "Mollaların qabağında diz çökdün, amma xeyri olmadı"



*Hind əsilli Britaniya yazıçısı Salman Rüşdü ötən həftənin axırı Dehlidəki konfransda etdiyi çıxışda Hindistan və Pakistan siyasətçilərini "qorxaq" adlandırıb. Onları söz azadlığına xəyanət etməkdə suçlayıb. Tədbirə yüzlərlə ziyalı, biznesmen, siyasətçi qatılıb. Amma Rüşdünün konfransa gəldiyini eşidən Hindistanın maliyyə naziri Pranab Mukherjee və kriketdən siyasətə gəlmiş məşhur pakistanlı İmran Xan tədbirdə iştirak planlarını ləğv ediblər. İki ay əvvəl radikal islamçıların ölüm hədələrindən sonra Caypur ədəbiyyat festivalına planlaşdırılan səfərini ləğv etmiş yazıçı, nəhayət, Hindistana səfər edib.*

O zaman Hindistan polisi ona qarşı-sui-qəsd törədilə biləcəyini bildirmiş, səfəri təxirə salmağı məsləhət görmüşdü. Bir çox hind siyasətçiləri isə "Şeytan ayələri" romanı ilə müsəlmanların "heysiyyatına toxunmuş" Rüşdünün səfərinin seçki ərəfəsində məqsədəuyğun olmadığını bəyan etmişdilər. Yazıçı son çıxışında deyib ki, Hindistana təhlükəni təkcə radikal islamçılar yox, həm də seçkidə ölkədəki müsəlmanların dəstəyini qazanmaq üçün hər vasitəyə əl atmağa hazır olan opportunist siyasətçilər törədir.

Rüşdünün səfərinə o zaman hakim Konqres Partiyası da etiraz etmişdi. Yazıçı hakim Qandi ailəsindən Raul Qandiyə xitabən deyib: "Sən illər uzunu hər qabağına çıxan mollanın qarşısında diz çökdün, amma xeyri olmadı". İmran Xan tədbirdə iştirakdan imtina etməsini izah edən qısa açıqlamasında Salman Rüşdünün dünya müsəlmanlarınının "ölçüyəgəlməz ağrılarının" səbəbkarı olduğunu əsas gətirib.



**Mumbayda Salman Rüşdüyə qarşı etiraz aksiyası. Onu "ayaqqabı silən" kimi göstərirlər. 11 yanvar 2012**

Rüşdü isə pakistanlı siyasətçini ondan "kabus düzəltməkdə" ittiham edib və İmran Xana xitabən deyib: "Ölçüyəgəlməz ağrılar"ın səbəbkarı Pakistanda fəaliyyət göstərən və İslamın adından istifadə edən terrorçulardır. Müsəlmanların ölçüyəgəlməz ağrılarının səbəbkarı Pakistanda gizlənmiş Üsamə bin Laden olub. Son sorğular pakistanlıların 80 faizinin bin Ladenə "qəhrəman" kimi baxdığını göstərir. Ölçüyəgəlməz ağrılara səbəb mollaların yönəltdiyi siyasətin doğurduğu iqtisadi çətinlik və təhsil imkanlarından məhrum olmadır".

Bu fikirlər konfrans iştirakçılarının alqışları ilə müşayiət edilib. "Bax, söz azadlığı budur. Mən bundan ləzzət alıram", - deyə yazıçı bildirib.

Salman Rüşdü Hindistan əhalisinə müraciət edərək onları söz azadlığını müdafiə etməyə çağırıb: "Burada insanlar yuxuya gedib, özü də bərk yatıblar. Oyanmaq vaxtıdır. Sizə qalan yalnız uğrunda mübarizə apardığınız azadlıqlar olacaq, mübarizə aparmadıqlarınızı isə itirəcəksiz".

Salman Rüşdünün qatıldığı konfrans Dehlidəki Taj Palace hotelində baş tutub. Müsəlman liderlər onun səfərinə qarşı çıxsalar da, hotelin qarşısında heç bir etiraz aksiyası müşahidə edilməyib.

***"New York Times"a istinadla oxuzali.az***

# Suriyanın birinci ledisinin pulları donduruldu



**Suriya prezidenti Bashar al-Assadın xanımı Asmanın Avropa Birliyinə gəlişi qadağan olunur və onun Avropadakı hesabları dondurulur. Avropa Birliyinin xarici işlər nazirlərinin Suriya, İran və Belarusa qarşı yeni sanksiyalarında belə deyilir. Avropa Birliyi nazirlərinin qərarına görə, Asma al-Assaddan başqa 10 Suriya rəsmisinin də hesabları dondurulur və onlar Avropa Birliyinə gələ bilməyəcəklər. Yeni sanksiyalara səbəb Suriya rejiminin öz opponentləri ilə zorakı davranmasıdır.**

Britaniyada anadan olan Asma əl-Assad son vaxtlar kəskin tənqid hədəfinə çevrilib. Buna səbəb isə Suriya fəallarının Bashar və Asma al-Assadların şəxsi e-malillərini çap etmələridir. Bu e-maillərə görə, Suriyada qanlı qarşıdurma qızışdığı vaxt Asma al-Assad internetlə lüks mallar almaqda davam edir.

Avropa Birliyinin Suriyaya qarşı indiyə kimi olan sanksiyaları 150 Suriya şirkətini və rəsmisini əhatə edirdi. Avropa Birliyi martın 23-də Belarus sanksiyalarında olan 230 rəsmiyə isə daha 12 adamı və 29 şirkəti əlavə edib. Onların Avropa Birliyinə gəlişi qadağan olunur və hesabları dondurulur. Avropa Birliyi İran sanksiyalarında olan 61 nəfərə də daha 17 nəfəri əlavə edib.

Onların da hesabları dondurulur və Avropa Birliyinə gəlməyə viza verilməyəcək.

***Elxan Nəsibli***





Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:

SMS: (+994 50 744 10 17)    Telefon: 436 – 77 - 41

Elektron ünvan: efir@azadliqradiosu.az

# "Real Madrid"in 1 milyard dollarlıq kurort adası



**Real Madrid Resort Island proyekti**

İspaniyanın " Real Madrid" futbol klubu kurort biznesinə daxil oldu. "RM Resort İsland" adlı kurort adası Birləşmiş Ərəb Əmirliklərində tikiləcək. 1 milyard dollarlıq sərmayesi nəzərdə tutulan istirahət guşəsi 430 min kv.m. sahəni əhatə edəcək. Lüks sinfinə aid ediləcək kurortda 60 ayrıca bunqalo (kotec) olacaq. Burada həmçinin hərəsinin sahəsi 600 kv.m. olan 48 villa, yaxt-klub, "Real Madrid" muzeyi, 450 otaqlı 5 ulduzlu hotel, sahildə 450, otaqlı sanatoriya, dənizə tərəf açılan ilk futbol stadionu, əyləncə parkı, ilk holoqramlı futbol şousu da daxildir.

Kurort adasının tikintisi 2015-ci elədək başa çatmalıdır.

# Dörd qanadlı, səsdən sürətli təyyarələr hazırlanır



**Səsdən sürətli təyyarə modeli**

Amerika alimləri iddia edirlər ki, səsdən sürətli yeni tipli təyyarə hazırlayırlar. Nevadada yerləşən Aeron Corporation şirkətinin üzərində işlədiyi Supersonic Business Jet (SSBJ – mənası "səsdən sürətli biznes təyyarəsi" deməkdir) 2015-ci ildən sərnişinlərə xidmət göstərəcək. İndiyədək səs sürətini keçən məşhur Concorde (Fransa-Britaniya) təyyarələri 2003-cü ildən istifadədən çıxarılmışdı. Bunun əsas səbəbləri Concorde təyyarələrinin həddən artıq yanacaq işlətməsi, güclü səs və sərnişin sayının məhdud olması idi. İndi Amerika alimləri bəyan edirlər ki, Concordun həll edə bilmədiyi texniki problemlərin öhdəsindən gəliblər.

Massaçusets Texnologiya İnstitutunun media üçün yaydığı açıqlamada problemlərin həlli izah olunur: təyyarənin 2 yox, 4 qanadı var (hər tərəfdə 2 qanad). Aeronavtika və kosmos elmləri üzrə professor assistenti Qiqi Wanq deyir ki, qanadların sayının artırılması təyyarə korpusunun hava müqavimətini azaldacaq, nəticədə nisbətən az yanacaq istifadə olunacaq. Onun sözlərinə görə, qanadların ən optimal formasını müəyyən etmək üçün 700-dən artıq qanad variantı sınaqdan keçirilib. Qiqi Wanq iddia edir ki, onların seçdikləri qanad formasında təyyarə ənənəvi konstruksiyalardan 2 dəfə az benzin yandıracaq.

Yeni səsdən sürətli təyyarərlər Concorde kimi, pul kisəsi qalın olan sərnişinlər üçün nəzərdə tutulur. Fransadan Nyu-Yorka 3 saat yarıma üçmaq hər adamın cibinə uyğun olmayacaq.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / İz / Korrupsiyametr / 14-24 / Azadlıq Bölgələrdə |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / AzadlıqFM / Iz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub / Online-vəkil |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Korrupsiyametr / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Korrupsiyametr |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Hara gəldi zibil atanlara qarşı mübarizə




*23.03.2012. Yüklədi: Sumqayıtdan Anar*

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Facebook.com/azadliqradiosu




**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

**Bizimlə əlaqə:**

**E-mail:** efir@AzadliqRadiosu.az


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz